AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

PUL SİYASƏTİ: ƏMƏLİYYAT ÇƏRÇİVƏSİ

May 2025

Bu sənəd pul siyasətinin yeni əməliyyat çərçivəsi ilə bağlı hazırlanmış və maliyyə institutları ilə geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur. İzahedici sənəd mütəmadi olaraq yenilənəcəkdir.

SƏNƏDİN STRUKTURU

1. TERMİNLƏR LÜĞƏTİ 3

2. GİRİŞ 5

3. MƏRKƏZİ BANKIN PUL SİYASƏTİNİN ƏSAS MƏQSƏDİ VƏ HƏDƏFLƏRİ 6

4. PUL SİYASƏTİ QƏRARLARININ VERİLMƏSİ 7

4.1. Qərarların qəbulu prosedurları 7

4.2. Proqnozlaşdırma və siyasət təhlili sistemi 7

5. MƏRKƏZİ BANKIN FAİZ DƏHLİZİ VƏ ONUN PARAMETRLƏRİ 9

6. PUL SİYASƏTİ HƏDƏFLƏRİNƏ NAİL OLUNMASINA TƏSİR EDƏN AMİLLƏR 10

7. PUL SİYASƏTİ ALƏTLƏRİ 11

7.1. Daimi imkanlar alətləri 12

7.2. Açıq bazar əməliyyatları 13

8. MƏCBURİ EHTİYATLAR 14

9. BANKLARARASI PUL BAZARININ İNFRASTRUKTURU 15

Əlavə 1. Pul siyasəti əməliyyatları üzrə təminat kimi qəbul edilən qiymətli kağızların siyahısı 17

1. TERMİNLƏR LÜĞƏTİ

Açıq bazar əməliyyatları	Mərkəzi Bankın təşəbbüsü ilə həyata keçirilən (əsasən qiymətli kağızların alqı-satqısı formasında) əməliyyatlardır. Mərkəzi Bank tərəfindən qiymətli kağızlar satıldıqda pul təklifi azalır, alındıqda isə pul təklifi artır. Açıq bazar əməliyyatları çərçivəsində qiymətli kağızlar birbaşa, habelə REPO və əks-REPO formasında alınıb satıla bilər.
Daimi imkanlar alətləri	Bankların təşəbbüsü ilə əvvəlcədən müəyyən olunmuş faiz dərəcələri ilə aparılan əməliyyatlardır. Azərbaycan Mərkəzi Bankı tərəfindən gecəlik depozit (vəsaitlərin cəlb olunması aləti) və gecəlik əks-REPO (vəsaitlərin yerləşdirilməsi aləti) əməliyyatları daimi imkanlar alətləri olaraq müəyyən edilmişdir.
Dollarlaşma	Milli valyutada olan nağd pulun, əmanət və depozitlərin xarici dönərli valyutaya miqrasiyası prosesidir.
Dövriyyədə olan nağd pul	Bank sistemindən kənarda olan nağd pulla yanaşı Mərkəzi Bankın və kommersiya banklarının kassalarında olan nağd pullar.
Faiz dəhlizi	Faiz dərəcələrini, xüsusən də pul bazarındakı qısamüddətli faizləri Mərkəzi Bankın hədəfinə doğru yönəltmək məqsədi daşıyan pul siyasəti alətidir. Azərbaycanda tətbiq olunan faiz dəhlizi aşağı hədd, yuxarı hədd və uçot dərəcəsindən ibarətdir.
REPO və əks-REPO əməliyyatları	REPO qiymətli kağızların satılması və əvvəlcədən razılaşdırılmış müddət bitdikdən sonra onlardan geri alınması əməliyyatıdır. Bu əməliyyat Mərkəzi Bank tərəfindən pul təklifinin həcminin qısamüddətli dövrdə azaldılması məqsədilə həyata keçirilir. Əks-REPO isə qiymətli kağızların alınması və əvvəlcədən razılaşdırılmış müddət bitdikdən sonra geri qaytarılmasını nəzərdə tutan əməliyyatdır. Mərkəzi Bank tərəfindən əks-REPO-

	nun tətbiq olunmasında məqsəd pul təklifinin qısamüddətli artırılmasıdır.
İstehlak qiymətləri indeksi	Müəyyən vaxt intervalı çərçivəsində əhali tərəfindən qeyri-istehsal məqsədilə istehlak edilən mal və xidmətlərin qiymətlərinin ümumi səviyyəsinin dəyişməsini xarakterizə edən indeksdir.
İzafi likvidlik	Bankların Mərkəzi Bankdakı müxbir hesablarında və öz kassalarında normativlərə uyğun tələb olunan səviyyədən artıq olan vəsaitdir.
Lombard siyahısı	Pul siyasəti əməliyyatları üzrə təminat qismində qəbul edilən qiymətli kağızların siyahısıdır.
Məcburi ehtiyatlar	Məcburi ehtiyatlar kommersiya bankları tərəfindən cəlb olunmuş depozitlərin mərkəzi bankda məcburi saxlanılan hissəsidir.
Pul siyasətinin transmissiyası	Mərkəzi Bank tərəfindən qəbul edilən pul siyasəti qərarlarının iqtisadiyyata ötürülməsi prosesidir. Müasir dövrdə pul siyasətinin faiz dərəcələri, kredit, valyuta məzənnəsi, gözləntilər və s. kimi transmissiya kanalları mövcuddur. Pul siyasəti qərarları real iqtisadiyyata bu kanallar vasitəsilə dərhal deyil, müəyyən vaxtdan sonra təsir göstərir.
Sterilizasiya yönümlü əməliyyatlar	Artmış pul kütləsinin inflyasiya potensialına malik izafi hissəsinin dövriyyədən çıxarılmasına yönəldilmiş əməliyyatlardır. Bununla belə xarici valyuta bazarında revalvasiya təhlükəsi yaradan artıq valyuta təklifinin alınması əməliyyatlarını xarakterizə etmək üçün də sterilizasiya terminindən istifadə edilir.
Xalis xarici aktivlər	Mərkəzi Bankın qeyri-rezidentlərlə xarici valyutada və qiymətli metallarla aparılmış aktiv-passiv əməliyyatlarının saldosudur.

2. GİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qabaqcıl təcrübələr və ölkə iqtisadiyyatının xüsusiyyətləri nəzərə alınmaqla pul siyasətinin strateji və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi işləri davam etdirilir. Bu tədbirlər banklararası bazarda qısamüddətli faizlərin pul siyasətinin alternativ əməliyyat hədəfi kimi formalaşmasına, pul siyasətinin transmissiyasında müxtəlif kanalların, xüsusilə də faiz kanalının gücləndirilməsinə xidmət edir.

Ümumilikdə, yeni əməliyyat çərçivəsi perspektivdə inflyasiya proseslərinin faiz dərəcələri vasitəsilə idarə edilməsinə və ölkədə makroiqtisadi sabitliyin təmin olunması imkanlarının genişləndirilməsinə, habelə maliyyə sektorunun mümkün şoklara qarşı dayanıqlığının gücləndirilməsinə xidmət edəcəkdir.

3. MƏRKƏZİ BANKIN PUL SİYASƏTİNİN ƏSAS MƏQSƏDİ VƏ HƏDƏFLƏRİ

Azərbaycan Respublikası Mərkəzi Bankının pul siyasətinin əsas məqsədi ölkədə qiymət sabitliyini, başqa sözlə inflyasiyanın aşağı səviyyədə qorunmasını təmin etməkdən ibarətdir.

Aşağı inflyasiya istehlakçılar və biznes üçün əlverişli iqtisadi mühit deməkdir. Qiymət sabitliyi sahibkarlara və ev təsərrüfatlarına imkan verir ki, onlar öz planlarını əminliklə və daha uzunmüddətli dövrə tərtib etsinlər. Aşağı inflyasiya milli valyutanın sabit alıcılıq qabiliyyətini təmin edir. Stabil aşağı inflyasiya gəlirlərin və yığımların dəyərsizləşməsinin qarşısını alaraq milli valyutada uzunmüddətli yığımları stimullaşdırır, dollarlaşmanı və faiz dərəcələrini azaldır. Bütün bunlar da iqtisadi artıma və maliyyə sabitliyinə müsbət təsir edir.

Pul siyasətinin son hədəfi olan inflyasiyanı ölçmək üçün istehlak qiymətləri indeksindən istifadə olunur. Azərbaycanda bu göstərici Dövlət Statistika Komitəsi tərəfindən bütün zəruri tələbat malları və xidmətlərin daxil edildiyi istehlak səbəti əsasında hesablanaraq ictimaiyyətə təqdim olunur. Əhalinin rifah səviyyəsindən və istehlak bazarındakı tendensiyalardan asılı olaraq istehlak səbətinə daxil olan məhsul və xidmətlər dəstinə vaxtaşırı baxılır.

Mərkəzi Bankın inflyasiya üzrə hədəfinin kəmiyyət parametrləri növbəti il üçün müəyyənləşdirilərək ictimaiyyətə açıqlanır. İllik hədəf istehlak qiymətləri indeksinin son 12 ayda dəyişimi (və ya 12 aylıq inflyasiya) üzrə müəyyən olunur.

Son hədəf əsasında pul siyasətinin aralıq və əməliyyat hədəfləri müəyyən olunur. Perspektivdə inflyasiyanın hədəflənməsi rejiminə keçidlə başlıca əməliyyat hədəfi olaraq banklararası pul bazarındakı qısamüddətli faizlərdən istifadə etmək nəzərdə tutulur.

4. PUL SİYASƏTİ QƏRARLARININ VERİLMƏSİ

4.1. Qərarların qəbulu prosedurları

Azərbaycan Respublikası Mərkəzi Bankında pul siyasətinə dair qərarlar əsasən İdarə Heyəti tərəfindən qəbul edilir. O cümlədən faiz dəhlizinin parametrlərinə dair qərar vermək səlahiyyəti İdarə Heyətinə məxsusdur.

İdarə Heyətinin səlahiyyətlərinə aid olmayan məsələlərə dair qərarlar Mərkəzi Bankın Pul Siyasəti və Maliyyə Sabitliyi Komitəsi tərəfindən verilə bilər. Pul Siyasəti və Maliyyə Sabitliyi Komitəsi pul və məzənnə siyasətinin işlənməsi və həyata keçirilməsi, maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti sahəsində mərkəzi bankın struktur bölmələrinin operativ fəaliyyətinin tənzimlənməsini və koordinasiyasını təmin edən kollegial orqandır. Komitənin iclaslarında pul və məzənnə siyasətinin əməliyyat çərçivəsi, pul siyasəti alətlərinin parametrləri, maliyyə sabitliyi üzrə risklər, makro və mikro-prudensial siyasət üzrə İdarə Heyətinə tövsiyələr verilir, həmçinin İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla müvafiq qərarlar qəbul edilir. Komitəyə Mərkəzi Bankın Sədri rəhbərlik edir. Komitənin üzvləri Mərkəzi Bankın pul, məzənnə və maliyyə sabitliyi siyasətinin işlənməsi və həyata keçirilməsində bilavasitə iştirak edən blokların rəhbərləridir.

4.2. Proqnozlaşdırma və siyasət təhlili sistemi

Azərbaycan Mərkəzi Bankında pul siyasətinə dair qərarlar qəbul edilərkən proqnozlaşdırma və siyasət təhlili sistemi (PSTS) çərçivəsində aparılan təhlillər və proqnozlar əsas götürülür.

PSTS pul siyasətinə dair qərarların verilməsi qrafikinə uyğun olaraq ildə 8 dəfə həyata keçirilir. Bu prosesdə Mərkəzi Bankın analitik işlərə məsul struktur bölmələrinin əməkdaşları iştirak edirlər. Qeyd olunan prosesin mühüm mərhələsi kimi “Son makroiqtisadi meyillər, proqnozlar və siyasət təklifləri” mövzusunda təqdimat hazırlanır.

Ümumilikdə, PSTS beş mərhələdən ibarət olmaqla 5 həftə ərzində aşağıdakı ardıcıllıqla həyata keçirilir:

I. Birinci mərhələdə pul siyasəti qərarlarının müzakirə olunacağı yekun iclas üçün təqdimatın strukturu müəyyənləşdirilir. Təqdimat əsasən ötən iclasdan bəri ölkə iqtisadiyyatında gedən makroiqtisadi prosesləri, xüsusilə inflyasiya prosesləri və proqnozlarını, xarici sektorda vəziyyəti, iqtisadi aktivliyi, valyuta və pul bazarında meyillər kimi məsələləri əhatə edir.

II. İkinci mərhələdə iqtisadi modellərin əsas parametrlərinə (neftin qiyməti, neft hasilatı, büdcə parametrləri, tərəfdaş ölkələrdə inflyasiya, pul bazası və s.) dair fərziyyələr müəyyənləşdirilir. Paralel olaraq statistik məlumatlar əsasında proqnoz modellərin verilənlər bazası yenilənir.

III. Üçüncü mərhələdə müvafiq model çantasından istifadə etməklə bir neçə ssenaridə cari və növbəti il üzrə əsas makroiqtisadi göstəricilərin proqnozları verilir.

IV. Növbəti mərhələdə təqdimatın ilkin versiyası Mərkəzi Bankın müvafiq struktur bölmələrinin ekspertləri səviyyəsində müzakirə edilir. Müzakirələrin nəticəsindən asılı olaraq təqdimatda zəruri dəyişikliklər edilir. Bu mərhələdə PSTS prosesinə cəlb olunmuş mütəxəssislərin ümumi rəyi əsasında siyasət qərarlarına dair təkliflər formalaşdırılır.

V. Sonuncu mərhələdə hazırlanmış təqdimat Mərkəzi Bankın daxili kollegial orqanlarında müzakirəyə çıxarılır. Müzakirənin nəticəsi olaraq İdarə Heyətinin üzvləri arasında keçirilən səsverməyə görə pul siyasəti qərarı qəbul edilir. Qəbul edilmiş qərar geniş ictimaiyyətə Mərkəzi Bankın sədrinin iştirakı ilə mətbuat konfransı və ya press-reliz vasitəsilə açıqlanır.

Ümumilikdə, Mərkəzi Bank pul siyasətinə dair qərarvermə çərçivəsində inflyasiya proseslərinə təsir edən bütün amilləri və riskləri nəzərə alır. Bu amillər əsasən azaldıcı və artırıcı olmaqla məcmu tələb və təklif ilə bağlı olur. Məcmu təklif amillərinə əsasən qlobal ərzaq və qeyri-ərzaq əmtəələrinin qiymətləri, idxal qiymətləri, yerli istehsalçı qiymətləri və s. aiddir. Məcmu tələb amillərinə isə əsasən özəl istehlak və özəl investisiyalar, eləcə də dövlət xərcləri daxildir. Təcrübə göstərir ki, pul siyasətinin məcmu təklif amillərinə təsiri məhduddur. Pul siyasəti əsasən məcmu tələb amilləri vasitəsilə inflyasiyaya təsir edir.

5. MƏRKƏZİ BANKIN FAİZ DƏHLİZİ VƏ ONUN PARAMETRLƏRİ

Pul siyasətinin əməliyyat çərçivəsinin mühüm elementlərindən biri faiz dəhlizidir. Faiz dəhlizi banklararası bazardakı qısamüddətli faizlərin dəhliz daxilində hərəkətini təmin etmək məqsədi daşıyır. Faiz dəhlizi eyni zamanda Mərkəzi Bankın likvidlik əməliyyatları üzrə faizlərinin iyerarxiyasını müəyyən edir.

Mərkəzi Bankın faiz dəhlizi üç parametr olan uçot dərəcəsi, yuxarı həddvə aşağı həddən ibarətdir. Faiz dəhlizinin aşağı həddi sterilizasiya yönümlü daimi imkanlar alətlərindən olan gecəlik (overnayt) depozit əməliyyatının faizidir. Faiz dəhlizinin yuxarı həddi isə gecəlik (overnayt) likvidliyin verilməsi üzrə daimi imkanlar alətlərindən olan əks-REPO əməliyyatının faizidir. Uçot faiz dərəcəsi faiz dəhlizinin mərkəzi parametridir. Bu faiz dərəcəsini elan etməklə Mərkəzi Bank banklararası bazarda qısamüddətli faizləri bu parametrə yaxınlaşdırmağa çalışır.

Dəhlizin aşağı həddi ilə uçot dərəcəsi arasında formalaşan faizlərlə sterilizasiya yönümlü qısamüddətli açıq bazar əməliyyatları həyata keçirilir. Uçot dərəcəsi ilə dəhlizin yuxarı həddi arasında formalaşan faizlərlə likvidliyin verilməsi yönümlü qısamüddətli açıq bazar əməliyyatları həyata keçirilir.

Mərkəzi Bank sərəncamındakı alətlərlə banklararası pul bazarında faizlərin dəhliz daxilində formalaşmasına çalışır. Bu proses pul siyasəti qərarlarının transmissiyasının birinci həlqəsini təşkil edir. Banklararası bazarda qısamüddətli faizlər dəyişəndə digər faizlər, o cümlədən depozit və kredit faizləri də dəyişir. Bu proses pul siyasəti qərarlarının transmissiyasının ikinci həlqəsini təşkil edir.

6. PUL SİYASƏTİ HƏDƏFLƏRİNƏ NAİL OLUNMASINA TƏSİR EDƏN AMİLLƏR

Pul siyasəti hədəflərinə nail olunması əhəmiyyətli dərəcədə bank sisteminin likvidlik mövqeyindən asılıdır. Bank sisteminin likvidlik mövqeyinə bir sıra amillər təsir göstərir.

Likvidliyə təsir edən başlıca avtonom (yəni Mərkəzi Bankdan asılı olmayan) amil hökumət hesablarının, xüsusilə də xəzinə qalığının dəyişimidir. Bu amil dövlət büdcəsinin gəlir və xərclərindən asılıdır. Xəzinə qalığının azalması manatla müxbir hesablara artırıcı, onun artması isə manatla müxbir hesablara azaldıcı təsir göstərə bilər. Bu amil dövlət büdcəsinin gəlir və xərclərindən asılıdır. Hökumət hesablarının dəyişiminin likvidliyə təsirini qiymətləndirə bilmək üçün Mərkəzi Bank Maliyyə Nazirliyi ilə əməkdaşlıq edir.

Digər mühüm amil xalis xarici aktivlərin dəyişimidir. Xalis xarici aktivlər Mərkəzi Bankın qeyri-rezidentlərlə xarici valyutada və qiymətli metallarla aparılmış aktiv-passiv əməliyyatların saldosudur. Bu saldo Mərkəzi Bankın valyuta ehtiyatlarının dəyişimindən asılıdır. Mərkəzi Bank bank sektorundan valyuta aldığı halda xalis xarici aktivlər və manatla pul bazası, xüsusilə də manatla müxbir hesablar artır. Əksinə, bank sektoruna valyuta satışı keçirildiyi halda isə xalis xarici aktivlər və manatla pul bazası, xüsusilə də manatla müxbir hesablar azalır.

Dövriyyədə olan nağd pulların hərəkəti də bank sisteminin likvidlik mövqeyinə təsir edir. Buraya bank sistemindən kənarda olan nağd pulla yanaşı bankların kassalarında olan nağd pullar da daxildir. Dövriyyədə olan nağd pulun azalması manatla müxbir hesabların qalığını artıra, onun artımı isə manatla müxbir hesabları azalda bilər. İqtisadiyyatda nağdsızlaşma prosesinin getməsi pul bazasının strukturunda nağd pulun payının azalması, müxbir hesabların payının isə artması ilə müşayiət olunur.

Bütün bunlardan başqa Mərkəzi Bank tərəfindən keçirilən pul siyasəti əməliyyatları da bank sisteminin likvidlik mövqeyinə təsir edir. Özünün açıq bazar əməliyyatları ilə Mərkəzi Bank pul siyasətindən kənar amillərin bank sisteminin likvidlik mövqeyinə təsirlərini neytrallaşdırmağa çalışır.

7. PUL SİYASƏTİ ALƏTLƏRİ

Mərkəzi Bank tərəfindən tətbiq olunan alətlər daimi imkanlar (bankların təşəbbüsü ilə keçirilən) alətlərinə və açıq bazar əməliyyatlarına (Mərkəzi Bankın təşəbbüsü ilə keçirilən sterilizasiya və likvidliyin verilməsi əməliyyatları) bölünür.

Cədvəl 1. Mərkəzi Bankın daimi imkanları və açıq bazar əməliyyatları

Məqsəd	Alət növü	Alət	Girov	Tezlik	Müddət
Likvidliyin verilməsi	daimi imkanlar	Əks-REPO	Lombard siyahısı[1] (bax əlavə 1-ə)	Gündəlik (bankların müraciəti ilə)	Gecəlik (overnayt)
	açıq bazar əməliyyatları	Əks-REPO		Qrafikə uyğun[2]	7 günlük
Likvidliyin sterilizasiyası		AMB-nin not hərracı	-	Qrafikə uyğun[2]	1,3,6,9 aylıq
		REPO	-	Qrafikə uyğun[2]	7 günlük
	daimi imkanlar	Depozit	Girovsuz	Gündəlik (bankların müraciəti ilə)	Gecəlik (overnayt)

[1] *Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş pul siyasəti əməliyyatları üzrə təminat kimi qəbul edilən qiymətli kağızlar*

[2] *Açıq bazar əməliyyatları zərurət olduğu hallarda aparılır*

7.1. Daimi imkanlar alətləri

Daimi imkanlar alətləri sterilizasiya yönümlü və likvidliyin verilməsi yönümlü olur. Daimi imkanlar alətlərinin mövcudluğu banklararası bazarda qısamüddətli faizlərin tərəddüdlərini əhəmiyyətli məhdudlaşdırır.

Sterilizasiya yönümlü daimi imkanlar alətləri. Banklar öz təşəbbüsləri ilə məcburi ehtiyatlar üzrə öhdəliklər və ödənişlərin fasiləsizliyi üçün tələb olunan vəsait nəzərə alınmaqla Mərkəzi Bankda gecəlik depozit yerləşdirə bilərlər. Bu əməliyyatlar nəticəsində müxbir hesablardan vəsait gecəlik müddətə sterilizasiya olunur və növbəti iş gününün əvvəli geriyə qaytarılır. Gecəlik depozit hər gün saat 16:45-17:00 intervalında Mərkəzi Bankda yerləşdirilir. Mərkəzi Bankın İdarə Heyətinin 28 yanvar 2025-ci il tarixli qərarına əsasən 03 fevral 2025-ci il tarixindən etibarən depozitlər növbəti iş günü saat 09:45-dək geriyə qaytarılmalıdır. Gecəlik depozitlər Mərkəzi Bankın faiz dəhlizinin aşağı həddinə bərabər faizlə yerləşdirilir.

Likvidliyin verilməsi yönümlü daimi imkanlar alətləri. Banklar öz təşəbbüslərilə hesablaşmaları həyata keçirmək və məcburi ehtiyatları təmin etmək məqsədilə Mərkəzi Bankdan məhdudiyyətsiz məbləğdə əks-REPO əməliyyatı ilə gecəlik (overnayt) likvidlik cəlb edə bilərlər. Gecəlik əks-REPO əməliyyatları üçün təminat qismində Mərkəzi Bankın İdarə Heyətinin 30 noyabr 2017-ci il tarixli qərarı ilə təsdiq edilmiş pul siyasəti əməliyyatları üzrə təminat kimi qəbul edilən qiymətli kağızlar (lombard siyahısı) çıxış edə bilər. Bu əməliyyatların keçirilməsi vaxtı hər gün saat 16:45-17:00 intervalıdır. Mərkəzi Bankın İdarə Heyətinin 28 yanvar 2025-ci il tarixli qərarına əsasən 03 fevral 2025-ci il tarixindən etibarən banklar tərəfindən vəsaitlər növbəti iş gününün əvvəli saat 09:45-dək Mərkəzi Banka geri qaytarılmalıdır. Gecəlik əks-REPO əməliyyatları Mərkəzi Bankın faiz dəhlizinin yuxarı həddi ilə aparılır.

7.2. Açıq bazar əməliyyatları

Açıq bazar əməliyyatları Mərkəzi Bankın təşəbbüsü ilə və Mərkəzi Bank tərəfindən müəyyənləşdirilən kəmiyyət parametrləri ilə aparılır. Açıq bazar əməliyyatları da sterilizasiya yönümlü və likvidliyin verilməsi yönümlü ola bilər.

Sterilizasiya yönümlü açıq bazar əməliyyatları. Sterilizasiya məqsədilə Mərkəzi Bank öncədən müəyyən edilən həcmlərdə 1,3,6 və 9 aylıq not hərracları keçirə bilər. Not hərracları bazar faizləri əsaslı mexanizmlə keçirilir. Başqa sözlə, notların gəlirliyi bazarda tələb-təklif nisbətindən asılı olaraq formalaşır.

Notların yerləşdirilməsindən əlavə likvidliyin sterilizasiyası məqsədilə öncədən müəyyən edilən həcmlərdə 7 günlük REPO hərracları keçirilə bilər. 7 günlük REPO hərraclarının keçirilməsi vaxtı həftənin çərşənbə axşamı və cümə günləri saat 15:00-15:30 müəyyən olunmuşdur. Hərraclar üzrə faizlər faiz dəhlizinin aşağı həddi (faiz dəhlizinin aşağı həddi daxil edilməməklə) ilə uçot dərəcəsi (uçot dərəcəsi daxil edilməməklə) arasındakı intervalda dəyişir.

Likvidliyin verilməsi yönümlü açıq bazar əməliyyatları. Likvidliyin verilməsi məqsədilə öncədən müəyyən edilən həcmlərdə 7 günlük əks-REPO hərracları keçirilə bilər. 7 günlük əks-REPO hərraclarının vaxtı həftənin çərşənbə axşamı və cümə günləri saat 15:00-15:30 müəyyən olunmuşdur. Hərraclar üzrə faizlər uçot dərəcəsi (uçot dərəcəsi daxil edilməməklə) ilə faiz dəhlizinin yuxarı həddi (faiz dəhlizinin yuxarı həddi daxil edilməməklə) arasındakı intervalda dəyişir.

Pul bazarındakı, xüsusilə də banklararası bazardakı vəziyyətdən asılı olaraq digər açıq bazar əməliyyatları da tətbiq oluna bilər.

8. MƏCBURİ EHTİYATLAR

Məcburi ehtiyatların norması bankların öhdəliklərinin həcminin müəyyən faizi nisbətində müəyyənləşdirilir. Banklar tərəfindən məcburi ehtiyatlar "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası"na uyğun olaraq hesablanır və saxlanılır.

Qaydaya uyğun olaraq məcburi ehtiyatlar bankın cəlb olunan öhdəliklərinin hesablama dövrü (1 ay) üzrə orta günlük qalığı əsasında hesablanır. Hesablama dövrü hər ayın ilk təqvim günü başlayır və son təqvim günü bitir. Banklar hesablama dövründən sonrakı 5 (beş) iş günü ərzində məcburi ehtiyatlar üzrə hesabatı Mərkəzi Banka təqdim etməlidir. Növbəti saxlama dövrünün məcburi ehtiyatları həmin hesabat əsasında müəyyən edilir.

Məcburi ehtiyatlar bankın Mərkəzi Bankda olan müxbir hesablarında saxlanılır. Saxlama dövrü hesablama dövrü bitdikdən sonrakı ayın 15-ci təqvim günü başlayır və növbəti ayın 14-cü təqvim gününədək davam edir.

Məcburi ehtiyatların saxlanması üçün aylıq ortalama mexanizmi tətbiq edilir. Yəni saxlama dövrünün bəzi günlərində məcburi ehtiyat məbləği tələb olunandan aşağı olarsa, bank qalan günlərdə normadan yuxarı vəsait saxlamaqla aylıq orta göstəricinin normaya uyğun gəlməsini təmin edə bilər.

Banklar məcburi ehtiyatları hesablama bazasına daxil olan depozitlərin valyutasından asılı olaraq saxlayırlar. Bu zaman milli valyutadakı və qiymətli metallardakı depozitlər üzrə məcburi ehtiyatı manat müxbir hesabında, xarici valyutalardakı öhdəliklər üzrə məcburi ehtiyatı isə ABŞ dollarında olan müxbir hesabda saxlayırlar.

9. BANKLARARASI PUL BAZARININ İNFRASTRUKTURU

Banklar arasında pul bazarı əqdləri təminatlı və təminatsız əsasda bağlana bilər. Banklararası təminatlı pul bazarı əsasən Bakı Fond Birjasında (Birja) qiymətli kağızların girovu ilə bağlanan REPO əməliyyatlarından ibarətdir. REPO əqdi bağlandığı zaman REPO predmeti olan qiymətli kağızlar depozitar tərəfindən REPO alıcısının hesabında dondurulur.

"REPO bazarında bağlanılan əqdlər üzrə indekslərin hesablanması və açıqlanması Qaydaları"na edilən dəyişikliklərə uyğun olaraq, Birja tərəfindən hər iş gününün sonuncu ticarət sessiyası bitdikdən sonra 1 gecəlik, 1 həftəlik, 2 həftəlik və 1 aylıq müddətlərdə bağlanılmış repo əməliyyatları üzrə AINA (Azn Index Average) indeksləri hesablanır. Bu indekslər banklar arasında bağlanan təminatlı pul bazarı əqdləri üzrə reprezentativ faiz rolunu oynayır. İndekslər haqqında məlumatlar ən gec müvafiq əməliyyatların aparıldığı günün növbəti iş günü saat 10.00-dək Birjanın internet səhifəsində açıqlanır. İndekslərlə yanaşı repo açılış əqdlərinin nominal üzrə ümumi məbləği, əqdlərin sayı, minimal və maksimal faiz dərəcəsi də açıqlanır.

Banklararası pul bazarının təminatsız seqmenti əsasən Blumberq ticarət sistemində bağlanan banklararası pul bazarı əqdlərindən ibarətdir. Bu seqmentin aktivləşdirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən Blumberq ticarət sistemində yeni platforma istismara verilmişdir. Platformada banklar arasında bağlanmış təminatsız pul bazarı əqdləri üzrə öhdəliklərin icrasına effektiv nəzarət mexanizmi formalaşdırılmışdır. Banklar platforma vasitəsilə manatla cəlbetmə və yerləşdirmə üzrə faiz dərəcələrini elan edir və digər iştirakçı banklar tərəfindən gələn sorğuların qəbul edilməsi yolu ilə pul bazarı əqdləri bağlanılır. Bu faiz dərəcələri banklar arasında bağlanan təminatsız pul bazarı əqdləri üzrə reprezentativ faiz rolunu oynayır.

2 may 2023-cü il tarixindən başlayaraq Mərkəzi Bank özünün rəsmi internet səhifəsində gündəlik əsasda təminatsız bazarda banklar arasında milli valyutada əməliyyatların orta çəkili faiz dərəcəsini əks etdirən müxtəlif müddətli AZIR (Azerbaijan Interbank Rate) indekslərini açıqlamağa başlamışdır. Mərkəzi Bank ötən dövrdə banklararası pul bazarında gedən proseslərin təhlilini və qabaqcıl beynəlxalq təcrübəni nəzərə alaraq Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) ekspertləri ilə sıx əməkdaşlıq çərçivəsində AZIR indeksinin hesablanmasının

yeni və daha təkmil qaydalarını hazırlayaraq təsdiq etmişdir. Bu indekslər Mərkəzi Bankın İdarə Heyəti tərəfindən 08.05.2025-ci il tarixində təsdiq edilən "Banklararası Təminatsız Pul Bazarında İstinad Faiz Dərəcəsinin Hesablanması və Açıqlanması Qaydaları" əsasında hesablanır.

İndekslərin hesablanmasında Blumberq ticarət platformasında Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya bankları arasında milli valyutada bağlanan əqdlərdən istifadə edilir. Faiz indekslərilə yanaşı Mərkəzi Bankın internet səhifəsində müvafiq tələblərə cavab verən əqdlərin məbləği və sayı da açıqlanır. Əlavə olaraq, yeni metodologiya əsasında toplanan faizli 30, 90, 180 günlük faizlərin və toplanan faizli artan AZİR indeksinin açıqlanmasına başlanılmışdır.

Yeni metodologiya ilə hesablanan AZIR indeksi Mərkəzi Bankın pul siyasətinin yardımçı əməliyyat hədəfi kimi istifadə edilir. Bazar iştirakçıları maliyyə bazarında müxtəlif əqdlərin bağlanması zamanı AZIR indeksindən istinad faiz dərəcəsi kimi istifadə edə bilərlər.

Platforma iştirakçısı olan banklar arasında bağlanmış əqd üzrə öhdəlik yerinə yetirilmədikdə, öhdəlik həcmində vəsait tələbnamə-tapşırıq əsasında kredit cəlb edən bankın müxbir hesablarından mübahisəsiz (akseptsiz) qaydada kredit verən bankın müxbir hesabına köçürülür. Bağlanılmış əqd overnayt (gecəlik) kredit olduqda əqd üzrə öhdəliklər tələbnamə-tapşırıq təqdim edilmədən Mərkəzi Bank tərəfindən növbəti əməliyyat günü saat 10:00-dək avtomatik qaydada kredit cəlb edən bankın müxbir hesabından silinərək kredit verən bankın müxbir hesabına köçürülür.

Əlavə 1. Pul siyasəti əməliyyatları üzrə təminat kimi qəbul edilən qiymətli kağızların siyahısı

- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən manatla buraxılan dövlət istiqrazları;
- Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən buraxılan istiqrazlar (notlar);
- Dövlət zəmanətli manatla buraxılan istiqrazlar;
- "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" tərəfindən manatla buraxılan ipoteka istiqrazları;
- Aşağıdakı beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən manatla buraxılan istiqrazlar:
    - Asiya İnkişaf Bankı;
    - Avropa Yenidənqurma və İnkişaf Bankı;
    - Beynəlxalq Maliyyə Korporasiyası;
    - Qara Dəniz Ticarət və İnkişaf Bankı.
- Rezident emitentlər tərəfindən manatla buraxılan və beynəlxalq kredit reytinqi agentlikləri («Standard&Poor's», «Fitch» və ya «Moody's») tərəfindən müəyyən edilmiş reytinqi Azərbaycan Respublikasının dövlət reytinqindən az olmayan korporativ istiqrazlar.